## Ümumi məlumat

Qubadlı rayonu Kiçik Qafqaz dağ silsiləsinin cənub-qərbində, Qarabağ yaylasının cənub-şərqində yerləşir. Qərbi Zəngəzurla (Ermənistan Respublikasının Sünik vilayəti ilə), Laçın, Cəbrayıl, Zəngilan və Xocavənd rayonları ilə həmsərhəddir. İnzibati mərkəzi Qubadlı şəhəridir. Ərazisi 802 kvadrat kilometrdir. Əhalisi 42,8 min nəfərdir (01.01.2022). Bakı şəhərindən rayon mərkəzinə 403 km-dir. Rayon 1 şəhər və 93 kəndi əhatə edir. Hazırda Şərqi Zəngəzur iqtisadi rayonuna daxildir.

1991-ci ildən başlanan Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü gündən-günə genişlənirdi. Ölkədə hakimiyyət uğrunda aparılan mübarizə ermənilərə fürsət vermişdir ki, hərbi təcavüzü daha da genişləndirsin. Azərbaycan hökuməti Ermənistanın hərbi təcavüzünün dayandırılması üçün BMT Təhlükəsizlik Şurasına etdiyi müraciətlər havadan asılı qalırdı. Fürsətdən istifadə edən Ermənistan ordusu əvvəlcə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini, daha sonra isə ətraf rayonları işğal etdi 1993-cü il avqustun 23-də Füzuli və Cəbrayıl rayonlarını işğal edildi. Yaranmış vəziyyət barəsində Azərbaycan dövləti 1993-cü il avqustun 23 və 30-da BMT Təhlükəsizlik Şurasının sədrinə müraciətlər etdi. Müraciətlərə cavab verilməmiş avqustun 31-də Ermənistan silahlı qüvvələri Qubadlı rayonunu işğal etdi. Rayonun 30 min nəfər sakini məcburi köçkünə çevrildi. Qubadlı rayonundan 238 nəfər şəhid olmuşdur. Onlardan 9 nəfəri ölümündən sonra Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülmüşdür.



Qubadlının işğalından sonra BMT Təhlükəsizlik Şurası 874 saylı qətnaməsi ilə zəbt olunmuş torpaqlardan qoşunların çıxarılmasını tələb etsə də, Ermənistan hökuməti buna 28 il məhəl qoymadı.

Qubadlının işğalı nəticəsində 4 tibb ocağı, 6 uşaq bağçası, 61 ümumtəhsil məktəbi, 10 mədəniyyət evi, 21 klub, 1 tarix- diyarşünaslıq muzeyi və 60 kitabxana ermənilər tərəfindən dağıdılıb. 20 min hektar sahəsi olan Qubadlı Dövlət Təbiət yasaqlığı viran qoyulub.

Ermənistanın şiddətlənən hərbi təcavüzü, eyni zamanda, Azərbaycanda yaranmış vətəndaş müharibəsi təhlükəsi, hərc-mərclik, iqtisadi böhran, dövlət institutlarının iflic olması ölkəni məhv olmaq təhlükəsi ilə

üzbəüz qoymuşdu. 1993-cü il iyunun 15-də ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdanda ölkədə mürəkkəb şərait hökm sürürdü

1 avqust 1993-cü ildə Ermənistan hərbi birləşmələri tərəfindən işğal olunub. İşğaldan əvvəl 29.903 nəfər əhalisi olmuşdur.

Rayon ərazisindəki sənaye, səhiyyə müəssisələri, mədəni-maarif ocaqları, tarix və mədəniyyət abidələri erməni vandalları tərəfindən dağıdıldı.

Qubadlı rayonunun bütün yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə viran və talan edilib, təbii sərvətləri talan edilib.

1992-ci ildən münaqişənin nizamlanması missiyasını öz üzərinə götürən ATƏT-in Minsk qrupunun səmərəsiz fəaliyyəti, təcavüzkara qarşı sanksiyaların tətbiq edilməməsi Ermənistanı şirniklәndirir, "yeni torpaqlar uğrunda yeni müharibə" sözləri ilə Azərbaycanı hədələyirdi. 2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törətdi. Təxribatın məqsədi regionda mövcud gərginliyi daha da qızışdırmaq, üçüncü dövlətləri münaqişəyə cəlb etmək və Azərbaycanın strateji infrastrukturlarına nəzarəti ələ keçirməkdən ibarət idi. 2020-ci ilin avqust ayında Ermənistan növbəti hərbi təxribata əl ataraq, terror aktları törətmək məqsədilə Azərbaycana diversiya qrupu göndərdi. Lakin 2020-ci il avqustun 23-də həmin qrup zərərsizləşdirildi. 2020-ci il sentyabrın 24-də Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışı zamanı Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını növbəti dəfə bəyan etdi. Lakin təəssüf ki, Ermənistanın ardıcıl təxribatları və yeni müharibə planlarına son qoyulması üçün ATƏT-in Minsk qrupu tərəfindən heç bir praktiki addım atılmadı.

2020-ci il sentyabr ayının 27-də səhər saat 06.00 ətrafında Ermənistan silahlı qüvvələri növbəti dəfə daha geniş miqyasda Azərbaycan Ordusunun mövqeləri və təmas xətti boyunca yerləşmiş yaşayış məntəqələrinə qarşı hərbi təxribata əl atdılar. Onlar iriçaplı silahlardan, minaatanlardan və müxtəlif çaplı artilleriya qurğularından həmin mövqeləri intensiv şəkildə atəşə tutdular. Nəticədə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qərarı əsasında Azərbaycan Ordusunun bütün cəbhə boyu əks-hücum əməliyyatları başlandı.

Azərbaycan Ordusu əks-hücum əməliyyatlarını işğal altında olan ərazilərdəki təmas xəttinin üç istiqamətindən - Ağdam-Tərtər, Murovdağ və Füzuli-Cəbrayıl istiqamətlərindən həyata keçirilməyə başladı. "İkinci Qarabağ", yaxud "Vətən müharibəsi" kimi adlandırılan 44 günlük müharibə başlandı.

Müharibənin elə ilk günündən erməni silahlı qüvvələrinin müdafiə xətləri yarıldı. Nəticədə Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, günün ikinci yarısında isə Murov dağ silsiləsində Murov zirvəsi erməni işğalından azad edildi. Adları çəkilən yaşayış məntəqələri Vətən müharibəsinin gedişində azadlığına qovuşmuş ilk yaşayış məntəqələri oldular.

Ermənistan silahlı qüvvələri həm sentyabrın 28-29-da itirdikləri bir sıra hərbi mövqelərin geri qaytarılması üçün həm cənub istiqamətində, həm də şimal istiqamətində əks-hücuma keçməyə cəhd göstərdilər. Erməni hərbi-siyasi rəhbərliyi cəbhə xəttində Azərbaycan Ordusunun üstünlüyünü bir təsadüf kimi qəbul edərək tezliklə tarazlığın bərpa ediləcəyinə ümid edirdi. Çoxsaylı beynəlxalq havadarlarına arxalanmaqla, Azərbaycanın genişmiqyaslı döyüş əməliyyatlarına başlayacağına inanmayan Ermənistanın hərbi rəhbərliyi Vətən müharibəsinin ilk günlərində çox tezliklə bu müharibənin dayandırılacağına ümid edirdi. Lakin Azərbaycanın hərbi qüvvələri onların bu ümidlərini puça çıxardılar.

Oktyabr ayının ilk günlərində Azərbaycan Ordusunun uğurlu döyüşləri davam etdi. Cəbhənin şimal-şərq hissəsində Azərbaycan Ordusunun bölmələri güclü erməni müdafiə mövqelərini yararaq Suqovuşan kəndi ətrafındakı hakim yüksəklikləri ələ keçirdi. Bu da imkan verdi ki, Suqovuşan kəndi nəzarət altına alınsın. Cəbhənin şimal istiqamətində erməni hərbi qüvvələrinin itirilmiş mövqeləri bərpa etmək cəhdlərinin qarşısı alındı. Cəbrayıl-Füzuli istiqamətində də erməni hərbi qüvvələrinin müqaviməti qırıldı və onlar geri çəkilməyə məcbur edildilər.

2020-ci il oktyabr ayının 4-də Cəbrayıl şəhərini və onun ətrafında olan yaşayış məntəqələri işğaldan azad edildi.



17 oktyabr 2020-ci ildə isə Füzuli şəhəri və ətraf yaşayış məntəqələri işğaldan azad olundu.

Cəbhənin cənubunda Azərbaycan Silahlı Qüvvələrinin bölmələri Araz boyu Zəngilana doğru sürətli hücumlarını davam etdirməkdə idi. Oktyabrın 19-u gün ərzində və 20-nə keçən gecə cəbhənin Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində müqavimət göstərməyə cəhd edən düşmənə qarşı aparılan döyüşlər öz intensivliyini saxlamaqda idi.

Xüsusilə, cəbhənin cənubunda Azərbaycan Silahlı Qüvvələrinin bölmələri Araz boyu Zəngilana doğru sürətli hücumlarını davam etdirməkdə idi. Oktyabrın 19-u gün ərzində və 20-nə keçən gecə cəbhənin Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində müqavimət göstərməyə cəhd edən düşmənə qarşı aparılan döyüşlər öz intensivliyini saxlamaqda idi.

Oktyabr ayının 19-20-də Azərbaycan Ordusunun tətbiq etdiyi taktika bu istiqamətdə formalaşdırılmış olan zərbə gücünün səmərəli şəkildə hərəkətə gətirilməsi ilə sürətli hücum həyata keçirməyə imkan verdi.

Oktyabrın 23-də azad edilmiş yaşayış məntəqələri arasında Qubadlı Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri var idi. Bu barədə də ilk məlumat respublika Prezidentinin Twitter hesabında paylaşıldı.

Oktyabrın 25-nə keçən gecədən başlayaraq cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları bu intensivliyi saxlamaqda idi. Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun olaraq əsas istiqamətlərdə uğurlu döyüşləri davam etdirərək nəzarətə götürülən əraziləri bir qədər də genişləndirmişdilər. Həmin gün Qubadlı şəhəri işğaldan azad edildi.

26 oktyabrın 26-da Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas kəndi Xanlıq kəndi Sarıyataq kəndi Mollabürhan kəndi

Bütün cəbhə boyu Ermənistan ordusunun məğlubiyyəti atəşkəs üçün vasitəçiləri hərəkətə keçirmişdi. Amerika Birləşmiş Ştatlarının vasitəçiliyi ilə 2020-ci il oktyabr ayının 26-da səhər saat 08.00-dan etibarən cəbhə xəttində humanitar atəşkəs haqqında razılıq əldə edilmişdi. Müdafiə Nazirliyi də bəyanat verərək bildirdi ki, Ali Baş Komandan İlham Əliyevin göstərişinə əsasən, bütün cəbhə boyu ərazilərdə atəşkəs rejiminə riayət olunur. Amma Ermənistan tərəfi bir daha göstərdi ki, atəşkəs rejiminin elan edilməsinə fəaliyyət taktikası kimi baxır və bu rejimdən gözlənilməz zərbənin vurulması və ya öz qüvvələrinin bərpasına əlverişli bir fürsət kimi qəbul edir. Atəşkəs rejiminin qüvvəyə minəcəyi vaxtdan dərhal sonra Ermənistan tərəfindən bu rejimin kobud şəkildə pozulması halları müşahidə edilməyə başladı. Belə ki, Ermənistan silahlı qüvvələrinin bölmələri yeni humanitar atəşkəs rejimi qüvvəyə mindikdən bir neçə dəqiqə sonra - saat 08.05-dən etibarən Tərtər, Ağdam, Ağcabədi, Füzuli, Qubadlı və Laçın istiqamətlərində yerləşən Azərbaycan mövqelərini və yaşayış məntəqələrini, o cümlədən Ermənistanın Şəmşəddin, Çəmbərək və Basarkeçər rayonları ərazisindən Tovuz, Gədəbəy və Daşkəsən rayonlarını müxtəlif növ atıcı silahlar, minaatanlar və toplardan atəşə tutdu .

Oktyabrın 26-da atəşkəs rejimini kobud şəkildə pozmağa çalışan erməni hərbi qüvvələrinə vurulan sarsıdıcı zərbələrdən sonra Azərbaycanın yeni yaşayış məntəqələri erməni işğalından azad edildi. Azad edilmiş yaşayış məntəqələri arasında Qubadlı şəhəri də var idi.

Qubadlı şəhərinin erməni işğalından azad edilməsi münasibətilə oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev radio və televiziya ilə xalqa müraciət etdi. Həmin gün Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq və kəndi Mollabürhan kəndləri işğaldan azad edildi.

Qubadlıdan sonra Laçına doğru irəliləmək mürəkkəb coğrafi şəraitdə müəyyən çətinliklərlə bağlı idi. Amma Qubadlı ilə Laçın arasında artıq ermənilərin müdafiə sistemi yox idi. Erməni hərbi qüvvələri yalnız coğrafi şəraitin təbii üstünlüklərinə az-çox arxalana bilərdilər.

Oktyabrın 28-də Azərbaycanın daha 13 kəndi, o cümlədən Qubadlı rayonunun Qiyaslı, Əbilcə və Qılıcan kəndləri erməni işğalından azad edildi.

Oktyabr ayının 29-30-da da işğal altında olan ərazilərin azad edilməsi uğrunda Azərbaycan Silahlı Qüvvələrinin bölmələri yeni döyüşlərə atıldılar. Qubadlı və Laçın rayonlarının mürəkkəb coğrafi şəraiti qarşıya



yeni sınaqları çıxarsa da, düzgün taktikanın tətbiq edilməsi, məkan amilindən daha səmərəli istifadə edilməsi erməni silahlı qüvvələrinin davamlı məhvinə zəmin yaratdı. Oktyabrın 30-da Qubadlı rayonunun Kavdadıq, Məmər və Mollalı kəndləri işğaldan azad edildi.

Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov oktyabrın 30-da Cenevrədə əvvəlcə ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə, daha sonra həmsədrlərin iştirakı ilə Ermənistanın xarici işlər naziri ilə görüşdü. Görüş zamanı Ermənistanın mülki şəxsləri və yaşayış məntəqələrini hədəfə aldığı, dinc əhaliyə qarşı qadağan olunmuş silahlardan istifadə etdiyi və müharibə cinayətləri törətdiyi qarşı tərəfin diqqətinə çatdırıldı. Lakin bu danışıqlar da Ermənistanı insanlığa qarşı cinayətlərindən çəkindirmədi.

Oktyabrın 29-30-dan etibarən Azərbaycan Ordusunun ilk bölmələri Şuşa ətrafında cəmləşməyə başladılar. Şuşanın taleyinin həll edildiyi 2020-ci il noyabr ayının 5-6-da Azərbaycan Ordusunun bölmələri yalnız bu şəhər daxilində və ətrafında deyil, cəbhənin digər sahələrində də erməni hərbi qüvvələrinə qarşı qətiyyətli döyüşləri davam etdirirdi.

Noyabrın 2-də İşıqlı, Muradxanlı və Milanlı kəndləri, noyabrın 4-də isə Başarat, Qarakişilər və Qaracallı kəndləri erməni işğalçılarından təmizləndi.

Noyabr ayının 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz Twitter hesabından Azərbaycanın yeni yaşayış məntəqələrinin erməni işğalından azad edilməsi ilə bağlı növbəti paylaşımını etdi.



Bu paylaşımda olan məlumata görə Qubadlı rayonunun Qəzyan, Balasoltanlı və Mərdanlı kəndləri erməni işğalçı qüvvələrindən təmizlənmişdi.

Noyabrın 8-ci isə Azərbaycan tarixinə Şuşa şəhərinin erməni işğalından azad edilməsi günü kimi yazıldı. Bu şəhərin azad edilməsi Qarabağın dağlıq hissəsinin Ermənistanla əlaqələrinin tam məhdudlaşdırılması, hərbi-strateji baxımdan isə bölgənin tamamən nəzarət altına alınması demək idi. Həmin gün xalqa müraciət edən Prezident İlham Əliyev bildirdi: "Bizim zəfər yürüşümüz davam edir. Hələ də işğal altında torpaqlar var, hələ də döyüşlər gedir. Əgər Ermənistan rəhbərliyi mənim tələblərimə cavab verməsə, sona qədər gedəcəyik. Heç kim bizi dayandıra bilməz. Dünyada elə qüvvə yoxdur ki, bizi dayandıra bilsin".

Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bu qətiyyətinin nəticəsi idi ki, noyabrın 9-da Azərbaycanın hərbi qüvvələri daha şanlı bir zəfəri əldə etdilər. Həmin gün Azərbaycanın 71 kəndi, 1 qəsəbəsi və 8 strateji yüksəkliyi erməni işğalından azad edildi və erməni hərbi qüvvələrini sarsıdıcı bir zərbə vuruldu. Həmin gün Qubadlı rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu və Çərəli kəndləri Ermənistan ordusunun işğalçı qüvvələrindən təmizləndi.

Məhz bu böyük uğurun əldə edilməsindən sonra Ermənistan rəhbərliyi məğlub olduğunu etiraf etdi və Azərbaycan qarşısında kapitulyasiya aktını imzalamalı oldu. Müharibənin dayandırılması ilə bağlı 2020-ci il noyabr ayının 10-na keçən gecə "Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatı" imzalandı. Bu bəyanata əsasən, 2020-ci il noyabr ayının 10-da saat 00.00-dan etibarən bütün cəbhə boyu atəş dayandırılır, Azərbaycanın və Ermənistanın silahlı qüvvələri olduqları mövqelərdə dayanır, dekabr ayının 1-dək Ağdam, Kəlbəcər və Laçın rayonları bəyanatda

öz əksini tapmış qrafikə əsasən Azərbaycan ərazisindən çıxarılır, Laçın-Şuşa yolu boyunca beş kilometr enində koridor yaradılır və bu koridora nəzarət Rusiyanın sülhməramlı qüvvələrinə həvalə edilirdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev üçtərəfli bəyanatın izmalanmasını Azərbaycan xalqının, dövlətinin və ordusunun şanlı qələbəsi, tarixi zəfəri kimi qiymətləndirirdi. Çünki bu bəyanat Azərbaycan xalqının 30 illik mübarizənin qürur dolu sonluğunun ifadəsi idi. Bu bəyanatla Azərbaycan ərazilərinin 30 il davam edən işğalına son qoyuldu, Ağdam, Kəlbəcər və Laçın isə heç bir döyüş aparılmadan, qan axıdılmadan erməni işğalından azad edildi. Bütünlükdə Vətən müharibəsinin davam etdiyi 44 gün ərzində döyüş meydanlarında əldə edilmiş uğurlar nəticəsində 300-ə yaxın yaşayış məntəqəsi, o cümlədən Şuşa, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri, Hadrud və Suqovuşan qəsəbələri, digər kənd və qəsəbələr işğaldan azad edildi.



Bu müharibənin gedişində məğlubedilməzliyi haqqında miflər quraşdırılmış Ermənistan ordusu məhv edildi. Düşmən ordusuna məxsus olan yüzlərlə hərbi texnika və hərbi obyektlər Azərbaycan döyüşçülərinin sərrast atəşləri ilə sıradan çıxarıldı və külli miqdarda silah-sursat və hərbi texnika qənimət kimi ələ keçirildi. Azərbaycan ordusunun işğalçı Ermənistanı döyüş meydanında məğlub etməsi nəticəsində düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi hazırda Bakıdakı Hərbi Qənimətlər Parkında nümayiş etdirilir.

Azərbaycan xalqının, Azərbaycan dövlətinin və Azərbaycan Ordusunun əldə etdiyi böyük Zəfər 44 gün davam edən Vətən müharibəsinin məntiqi sonluğuna çevrildi, Azərbaycan xalqının tarixinə hər zaman qürurla xatırlanacaq şərəfli bir Zəfər günü yazıldı.

Böyük Zəfərin əldə edilməsi ilə təxminən 30 il müddətində davam edən "Dağlıq Qarabağ" adlı bir münaqişəyə də son qoyuldu, Azərbaycan xalqı və dövləti beynəlxalq hüquq normalarına uyğun olaraq öz ərazi bütövlüyünü bərpa etdi, erməni faşizminə və onun dayaqlarına sarsıdıcı bir zərbə vuruldu.

Ərazilərimizin düşmən tapdağından azad edilməsindən dərhal sonra Prezident İlham Əliyevin tapşırığına əsasən rayonlarda yenidənqurma və bərpa işlərinə start verilmişdir.

Vətən müharibəsində əldə olunmuş tarixi qələbəni əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərini təsis etmək məqsədilə Azərbaycan Respublikası Prezidenti 31 iyul 2023-cü il tarixdə Sərəncam imzalayıb. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" həmin Sərəncama əsasən hər il oktyabrın 25-i "Qubadlı şəhəri günü" kimi təntənəli şəkildə qeyd olunması qərara alınıb.

28 il ərzində erməni vandalları tərəfindən xarabazara çevrilən Qubadlı şəhəri və Qubadlı rayonu tamamilə yenidən qurulur. Doğma ocaqlarına həsrət qalan qubadlılılar ən müasir və abad şəkildə yenidən inşa edilən doğma yer-yurdlarına qayıdırlar.

Dövlətimizin başçısının gündəlik nəzarəti və qayğısı sayəsində Qubadlı rayonunun da daxil olduğu Şərqi Zəngəzur cənnətə çevrilir.

**İstifadə edilmiş ədəbiyyat**

Azərbaycan Respublikasının inzibati-ərazi bölgüsü. Məlumat toplusu. Bakı, 2013.

Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007.

Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru. Bakı, 2021.

Qarabağ həqiqətləri = Karabakh Realities = Истины Карабаха. Bakı, 2011.

Qasımlı Musa. Azərbaycan Respublikasının tarixi (1991-2021). 2 cilddə. II cild (2003-2021). Bakı, 2021.

Paşayeva Məhəbbət. Qarabağın və Şərqi Zəngəzurun alban abidələri. Bakı, 2022.

Süleymanov Mehman. Münaqişənin həll edilməsi. preslib.az/projects/azdiplomacy/a2_4.pdf

https://president.az

https://azertag.az/

https://files.preslib.az/projects/zefer/az/rayonlar.pdf

https://armenianvandalism.preslib.az/az_gubadly.html

https://armenianvandalism.preslib.az/az_gallery.html

http://www.qubadli-ih.gov.az/az